**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİNİN**

**ZAQATALA filialı**

FAKÜLTƏ: İqtisadiyyat və menecment departamenti

BÖLMƏ: İqtisadiyyat və idarəetmə

İXTİSAS: Turizm işinin təşkili

Müdafiəyə buraxılır:

«____» «_____» 2025-ci il

Bölmə rəhbəri: ______________________

**BAKALAVR TƏHSİL PİLLƏSİ ÜZRƏ**

# BURAXILIŞ İŞİ

**MÖVZU: "Qarabağ regionunda turizmin mövcud vəziyyəti və inkişaf istiqamətləri"**

**QRUP: TT1q-20**

**TƏLƏBƏ: Kamallı Kamal Zakir oğlu**

**ELMİ RƏHBƏR: i.f.d dos. Sərdarov Elnur Zaur oğlu**

**ZAQATALA-2025**

# MÜNDƏRİCAT


**Giriş** ........ 3

**I FƏSİL: Qarabağ regionunda turizmin resurs potensialı** ........ 5

1.1. Qarabağın tarixi və mədəni irsi ........ 5

1.2. Qarabağda təbii resursların turizmdə rolu ........ 13

1.3. Qarabağ regionunda turizmin mövcud vəziyyəti ........ 17

**II FƏSİL: Qarabağda turizmin inkişaf imkanları və çağırışları** ........ 22

2.1. Qarabağ regionunun iqtisadi potensialı və turizmə təsiri ........ 22

2.2. Turizmin inkişafına mane olan amillər ........ 26

2.3. Qarabağda turizmin inkişaf istiqamətləri ........ 28

**III FƏSİL: Qarabağ regionunda turizmin inkişafı** ........ 30

3.1. Qarabağda turizm infrastrukturunun təkmilləşdirilməsi ........ 30

3.2. İnnovativ turizm məhsullarının yaradılması ........ 31

3.3. Turizm sahəsində əməkdaşlıq və marketinq strategiyaları ........ 33

Ədəbiyyat siyahısı ........ 39

## Giriş

Turizm sektoru müasir iqtisadiyyatın aparıcı sahələrindən biri olmaqla yanaşı, həm də regionların sosial-mədəni inteqrasiyasının və davamlı inkişafının təşviqində mühüm rol oynayır. Azərbaycanın işğaldan azad edilmiş əraziləri, xüsusilə Qarabağ iqtisadi rayonu zəngin turizm potensialı ilə ölkənin bu sahədə yeni inkişaf mərhələsinə keçidini təmin edə bilər. Qarabağ bölgəsi həm təbii sərvətləri, həm də zəngin tarixi-mədəni irsi ilə seçildiyi üçün təkcə milli deyil, həm də beynəlxalq səviyyədə cəlbedici turizm məkanına çevrilmək potensialına malikdir. Hazırda aparılan genişmiqyaslı bərpa işləri, yeni infrastrukturun yaradılması və təhlükəsiz mühitin təmin edilməsi rayonda turizmin inkişafı üçün möhkəm zəmin yaradır

**Tədqiqatın aktuallığı** onunla bağlıdır ki, Qarabağ uzunmüddətli işğala görə sosial-iqtisadi təcrid vəziyyətində idi, nəticədə rayonun turizm potensialı tam reallaşdırıla bilmədi. İndiki mərhələdə bu potensialdan səmərəli istifadə rayonun dirçəlişi üçün prioritet məsələlərdən birinə çevrilib. Dövlət dəstəyi, mövcud resurslar və xarici investorların maraqları nəzərə alınmaqla turizmin inkişaf yollarının elmi qiymətləndirilməsi böyük əhəmiyyət kəsb edir.

**Tədqiqatın obyekti** Qarabağ iqtisadi rayonunda və işğaldan azad edilmiş ərazilərdə inkişaf etmiş turizm sektorudur.

**Tədqiqatın predmeti** bu sahədə turizmin real vəziyyəti, təbii və iqtisadi resursların bu sahəyə təsiri, inkişaf perspektivləri və mövcud çətinliklərdir.

**Tədqiqatın əsas məqsədi** Qarabağ iqtisadi rayonunun turizm potensialını araşdırmaq, turizmin üzləşdiyi maneələri müəyyən etmək və sektorun davamlı inkişafına yönəlmiş effektiv strategiyalar təklif etməkdir.

İşin nəzəri və metodoloji əsasını regional inkişaf nəzəriyyələri, münaqişədən sonrakı regionlarda turizmin bərpasına elmi yanaşmalar və beynəlxalq təcrübə təşkil etmişdir.

**İnformasiya bazası** olaraq Azərbaycan Respublikası Prezidentinin müvafiq fərman və sərəncamları, Dövlət Statistika Komitəsinin rəsmi məlumatları, İqtisadiyyat Nazirliyi və Dövlət Turizm Agentliyinin sənədləri, eləcə də ESRİ, ArcGis, ArcMap, Open Street Map, Google Earht Pro proqramlarından istifadə edilmiş, mövzu üzrə yerli və beynəlxalq elmi məqalə və tədqiqatlar istifadə olunmuşdur.

Tədqiqatın həyata keçirilməsində **metodoloji yanaşmalar** kimi müqayisəli analiz, statistik məlumatların ümumiləşdirilməsi, sistemli və strukturlaşdırılmış təhlil, xəritə əsaslı təhlil və SWOT analizi, ESRİ, ArcGis, ArcMap, Open Street Map, Google Earht Pro proqramlarının məlumat bazasından istifadə edərək yeni innovativ turizm marşrutları hazırlanmışdır.

**Tədqiqatın strukturu** giriş, üç əsas fəsil və nəticə-təkliflərdən ibarətdir. Birinci fəsildə turizmin resurs potensialı, Qarabağın tarixi və təbii resurs bazası araşdırılır. İkinci fəsildə regionun iqtisadi potensialı, mövcud maneələr və inkişaf imkanları təhlil edilir. Üçüncü fəsildə turizm sektorunun inkişafı üçün konkret təkliflər, innovativ yanaşmalar və əməkdaşlıq modelləri irəli sürülür. Nəhayət, əldə edilmiş elmi nəticələr ümumiləşdirilərək "Nəticələr və təkliflər" bölməsində təqdim olunur.

# I FƏSİL: Qarabağ regionunda turizmin resurs potensialı

## 1.1. Qarabağın tarixi və mədəni irsi

Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı əsasında 7 iyul 2021-ci ildə Azərbaycan Respublikası ərazisi yeni iqtisadi coğrafi rayonlaşdırma əsasında bölündü. Hədəflənmiş islahatlar və genişmiqyaslı tədbirlərin ardıcıl şəkildə həyata keçirilməsi ölkəmizin iqtisadi və hərbi müdafiə potensialını və qüdrətini əhəmiyyətli dərəcədə gücləndirmiş və 44 günlük Vətən müharibəsində qazanılan möhtəşəm zəfərin, qələbənin əldə olunmasına və ərazi bütovlüyünün bərpasının təmin olunmasına möhkəm təməl yaratmışdır. (Azərbaycan Respublikası prezidentin rəsmi saytı, 2021) prezident.az

Bu iqtisadi cografi bölgü Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndi əsasında 14 yeni iqtisadi coğrafi rayonlar formalaşdı. Bunlar aşağıdakılardır: 1. Bakı iqtisadi rayonu, hansı ki Bakı şəhəri aiddir; 2. Abşeron–Xızı iqtisadi rayonu Sumqayıt şəhəri, Abşeron və Xızı rayonları ilə birgə; 3. Naxçıvan iqtisadi rayonu Naxçıvan şəhəri, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonları ilə birlikdə; 4. Dağlıq Şirvan iqtisadi rayonu hara ki Ağsu, İsmayıllı, Qobustan və Şamaxı rayonları aiddir; 5. Gəncə–Daşkəsən iqtisadi rayonu (Gəncə və Naftalan şəhərləri, Daşkəsən, Goranboy, Göygöl və Samux rayonları); 6. Qazax–Tovuz iqtisadi rayonu (Ağstafa, Gədəbəy, Qazax, Şəmkir və Tovuz rayonları); 7. Qarabağ iqtisadi rayonu (Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonları); 8. Şərqi Zəngəzur iqtisadi rayonu (Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları); 9. Quba–Xaçmaz iqtisadi rayonu (Xaçmaz, Quba, Qusar, Siyəzən və Şabran rayonları); 10.Lənkəran–Astara iqtisadi rayonu (Astara, Cəlilabad, Lerik, Lənkəran, Masallı və Yardımlı rayonları) 11. Mərkəzi Aran iqtisadi rayonu (Mingəçevir şəhəri, Ağdaş, Göyçay, Kürdəmir, Ucar, Yevlax və Zərdab rayonları); 12. Mil–Muğan iqtisadi rayonu (Beyləqan, İmişli, Saatlı və Sabirabad rayonları); 13. Şirvan–Salyan iqtisadi rayonu Şirvan şəhəri, Biləsuvar, Hacıqabul, Neftçala və Salyan rayonları ilə birlikdə. 14. Şəki–Zaqatala iqtisadi rayonu Balakən, Qax, Qəbələ, Oğuz, Şəki və Zaqatala rayonları ilə birlikdə. (Azərbaycan Respublikası prezidentin rəsmi saytı, 2021) prezident.az

Burada əsas dəyişikliklər 1991-2021-ci il iqtisadi-coğrafi rayonlaşma ilə müqayisədə, əvvəl 10 iqtisadi rayonumuz var idi. İndi bu iqtisadi rayonların sayı 14 oldu. İqtisadi-coğrafi bölgüsündə hansı dəyişikliklər baş verib gəlin baxaq. Əvvəlki Aşeron iqtisadi-coğrafi rayon 2 yerə bolünüb. Bakı və Abşeron-Xızı iqtisadi rayonu. Əvvəl Abşeron iqtisadi rayona Xızı, Abşeron, Sumqayıt və Bakı şəhəri də daxil idirsə, indiki bölgü əsasında Bakı şəhəri ayrılıb və ayrıca Bakı iqtisadi rayon kimi fəaliyyət göstərir. Digər bir dəyişiklik əvvəlki Aran iqtisadi-coğrafi rayonunda öz

əksini tapır. Əvvəl Aran iqtisadi-coğrafı rayonuna Mingəçevir, Şirvan və Yevlax şəhərlərini, Ağcabədi, Ağdaş, Beyləqan, Bərdə, Biləsuvar, Göyçay, Hacıqabul, İmişli, Kürdəmir, Neftçala, Saatlı, Sabirabad, Salyan, Ucar, Yevlax və Zərdab inzibati rayonlarını əhatə edirdi. İndi Aran iqtisadi-coğrafi rayonu 3 yerə bölünüb: Mərkəzi Aran iqtisadi rayonu (Mingəçevir şəhəri, Ağdaş, Göyçay, Kürdəmir, Ucar, Yevlax və Zərdab rayonları); Mil–Muğan iqtisadi rayonu (Beyləqan, İmişli, Saatlı və Sabirabad rayonları); Şirvan–Salyan iqtisadi rayonu Şirvan şəhəri, Biləsuvar, Hacıqabul, Neftçala və Salyan rayonları ilə birlikdə. Həmçinin Bərdə və Ağcəbədi rayonları Qarabağ iqtisadi rayonu ilə birləşdirilib. Əvvəlki Gəncə-Qazax iqtisadi rayonuna Gəncə və Naftalan şəhərləri, Ağstafa, Daşkəsən, Gədəbəy, Goranboy, Göygöl, Qazax, Samux, Şəmkir, Tovuz inzibati rayonları daxil idi. İndi 2 yerə bölünərək Gəncə–Daşkəsən iqtisadi rayonu (Gəncə və Naftalan şəhərləri, Daşkəsən, Goranboy, Göygöl və Samux rayonları ilə birlikdə) və Qazax–Tovuz iqtisadi rayonu (Ağstafa, Gədəbəy, Qazax, Şəmkir və Tovuz rayonları ilə birlikdə) rayonlara bölündü. Digər bir dəyişiklik əvvəl Kəlbəcər-Laçın iqtisadi-coğrafi rayonunun tərkibinə Kəlbəcər, Laçın, Zəngilan və Qubadlı rayonları daxil idi. İndi isə adı Şərqi Zəngəzur iqtisadi rayonu oldu, hara ki Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları aid edilir və Cəbrayıl rayonu da bu bölgüyə əlavə olunur. Daha bir dəyişiklik Yuxarı Qarabağ iqtisadi rayonu ləğv olunaraq Qarabağ iqtisadi rayonu kimi yeni bir iqtisadi rayonun yaradılması oldu. Əvvəl Yuxarı-Qarabağ İqtisadi rayonuna Xankəndi şəhərini, Ağdam, Cəbrayıl, Füzuli, Xocavənd, Xocalı, Şuşa və Tərtər rayonlarını əhatə edirdi. İndiki bölgüyə əsasən Qarabağ iqtisadi rayonuna Xankəndi şəhəri, Ağdam, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonları və həmçinin Bərdə və Ağcabədi rayonu əlavə olundu. Naxçıvan, Lənkəran-Astara, Şəki-Zaqatala və Quba-Xaçmaz iqtisadi rayonlarda vəziyyət eyni olaraq qalıb. (Azərbaycan Cografiya Cəmiyyəti, ACC, 2021), (Azərbaycan Respublikası prezidentin rəsmi saytı, 2021) prezident.az

Bu iqtisadi rayonlaşma, bu iqtisadi-coğrafi bölgünün yenilənməsində və bəzi iqtisadi, fəaliyyəti və təsərrüfat baxımından inkişafını təmin etmək məqsədi ilə dəyişdirilməsində əsas məqsəd və əsas səbəb regionlarda sosial-iqtisadi inkişafını təmin etmək idi. Həmçinin rayonlarda sosial-iqtisadi inkişafını təmin etmək və artırmaq məqsədi ilə bəzi dəyişiklər aparılıb. Bu dəyişikliyin əsas məqsədi rayonları sənaye, kənd təsərrüfatı, iqtisadi inkişafı, fəaliyyət baxımından birləşdırmək və daha da təkmilləşdirmək və optimallaşdırmaq idi. Bu təşəbbüsün irəli sürməsi gələcək üçün də əsas məqsədlərdən biri olub və olacaq. (Azərbaycan Respublikası prezidentin rəsmi saytı, 2021) prezident.az

Hazırda işğaldan azad edilmiş ərazilərdə yenidənqurmanın, davamlı inkişafın, infrastrukturun qurulmasının və insanların öz doğma yurdlarına qayıtmasının təmin edilməsi istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Bu ərazilərin zəngin təbii sərvətlərindən, iqtisadi potensialından və turizm imkanlarından səmərəli

istifadə etməklə onların tarazlı inkişafını təmin etmək üçün bütün davamlı işlərin vahid proqram çərçivəsində həyata keçirilməsi zəruridir. Bu da öz növbəsində azad edilmiş rayonların yeni iqtisadi rayonlara bölünməsinə yenidən baxılmasını tələb edir. (Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, 2021), (Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Prezidentin Fərmanı, https://e-qanun.az/framework/48017).

Zəngəzur yaylasının şərq tərəfində Ermənistanla həmsərhəd olan, Zəngəzur silsiləsi ilə əhatə olunmuş, Laçın və Kəlbəcərdən Naxçıvana qədər uzanan ərazilər 1861-ci ildə yaranmış Zəngəzur rayonunun tərkibinə daxil olmaqla, tarix boyu birgə mövcud olmuş və onlar arasında sosial-iqtisadi, tarixi və mədəni bağlar vardır. Bu ümumi coğrafi və tarixi xüsusiyyətlər Zəngilan, Qubadlı, Cəbrayıl, Laçın və Kəlbəcər rayonlarının vahid iqtisadi rayonda birləşdirilməsinin zəruriliyini əsaslandırır və müəyyən edir. Azərbaycan Respublikasının Prezidenti (2021). Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Fərman. https://e-qanun.az/framework/48017. Yeni Qarabağ iqtisadi rayonunun yaradılması qədim Qarabağ bölgəsinə daxil olan, zəngin tarixi-mədəni irsi, gözəl təbiəti ilə seçilən Ağdam, Şuşa, Füzuli, Tərtər, Xocavənd, Xocalı rayonlarının və Xankəndi şəhərinin, eləcə də Bərdəbədi rayonu ilə sıx bağlı olan gözəl təbiət mənzərəsinin bərpası və dinamik inkişafı üçün zəruri addım hesab olunur. Azərbaycan Respublikasının Prezidenti (2021). Azərbaycan Respublikasında yeni iqtisadi rayonların təsnifatı haqqında fərman. Rəsmi hüquqi sənəd: https://e-qanun.az/framework/48017. İşğaldan azad edilmiş ərazilərin ölkənin təsərrüfat sisteminə uğurla inteqrasiyası Gəncə-Qazax və Aran kimi digər iqtisadi rayonlarda da planlaşdırma proseslərinin daha səmərəli həyata keçirilməsini, iqtisadi idarəetmədə çevikliyin təmin edilməsini zəruri edir. Buna nail olmaq üçün bu iqtisadi rayonların hazırkı tərkibinə təcili olaraq yenidən baxmaq lazımdır. Azərbaycan Respublikası Prezidentinin Fərmanı (2021). Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında. Hüquqi sənəd: https://e-qanun.az/framework/48017

Məlum olduğu kimi, ölkə başçısının qətiyyətli siyasəti sayəsində Azərbaycan öz torpaqlarını işğaldan azad edib, ərazi bütövlüyünü bərpa edib. Möhtərəm Prezidentimizin 7 iyul 2021-ci il tarixli sərəncamına əsasən, yeni iqtisadi-coğrafi rayonlaşdırmaya uyğun olaraq, Qarabağ iqtisadi rayonu hazırda aşağıdakı inzibati rayonlara bölünür: Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonları. Bu bölgələrin hər birinin tarixi, mədəni irsi, coğrafi mövqeyi və iqtisadi əhəmiyyəti böyük əhəmiyyət kəsb edir. (İmrani Z., Zeynalova K., 2025)

**1. Şuşa**. Qarabağ dağlıq qurşağının cənub-qərbində yerləşən Şuşa şəhəri təxminən 1400-1600 metr yüksəklikdə yerləşir. Ərazi əsasən dağlıq və meşəlik relyefə malikdir. Buradakı iqlim yarı təbii dağ meşə iqlimidir. Şəhər 1752-ci ildə Pənahəli

xan tərəfindən əsası qoyulmuş və Qarabağ xanlığının əsas siyasi və hərbi mərkəzinə çevrilmişdir. Şuşa tarixi və memarlıq abidələri ilə zəngindir. Bunlara Şuşa qalası, Gövhər ağa məscidi, Molla Pənah Vaqifin türbəsi, həmçinin Üzeyir Hacıbəyli və Natəvanın ev-muzeyləri daxildir. 2023-cü ildən Şuşa rəsmən Azərbaycanın mədəniyyət paytaxtı elan edilib. (Məsimov E., 2021).

**2. Ağdam.** Ağdam rayonu Kür-Araz ovalığının şərq hissəsində, Qarabağ düzündə yerləşir. İqlimi quru subtropikdir. XVIII əsrdə Qarabağ xanlığının ticarət və əkinçilik mərkəzlərindən biri kimi inkişaf etmişdir. 1993-cü ildə işğal edilib, 2020-ci ildə azad edilib. Xan sülaləsinə məxsus Ağdam Cümə məscidi və İmarət kompleksi mühüm tarixi abidələrdir. Eyni zamanda, bu bölgə Azərbaycan muğam sənətinin inkişafında mühüm rol oynayıb. **(** *Həsənov, M., 2020).*

**3. Bərdə.** Kür çayının sağ sahilində yerləşən Bərdə düzənlik relyefə və əkinçilik üçün əlverişli torpağa malikdir. Bərdə qədim Qafqaz Albaniyasının paytaxtı olmuş və Ərəb xilafəti dövründə mühüm mədəni və iqtisadi mərkəz kimi tanınmışdır. Xocavənd kəndindəki Bərdə məqbərəsi, qədim hamamlar və qala xarabalıqları bu rayonun zəngin tarixi irsinə nümunədir. **(***Qasımov, F.,2019).*

**4. Füzuli.** Füzuli rayonu düzənlik və dağətəyi ərazilərdə, Araz çayının yaxınlığında yerləşir. Ərazi quru subtropik iqlimə malikdir. Füzuli rayonu ərazisində İşıqlı, Qaraxanbəyli, Horadiz kimi qədim yaşayış məskənləri vardır. Ərazi 23 avqust 1993-cü ildə işğal edilib və 17 oktyabr 2020-ci ildə azad edilib. Ərazidə Hacı Ələkbər məscidi və Qaraxanbəyli nekropolu kimi tarixi abidələr yerləşir. Eyni zamanda, xalq sənətkarlığı və kulinariya irsi ilə məşhurdur.**(***Məmmədova, A.,2022).*

**5. Ağcabədi.** Kür-Araz ovalığının mərkəz hissəsində yerləşən Ağcabədi rayonu əsasən düzənlikdir və kənd təsərrüfatı üçün əlverişli şəraitə malikdir. Ərazi tarixən Qarabağ xanlığının təsiri altında olub və 20-ci əsrdə müstəqil rayon kimi formalaşıb. Dahi bəstəkar Üzeyir Hacıbəyovun doğulduğu bu rayon muğam və aşıq sənətinin mərkəzlərindən biri hesab olunur. **(***Rzayeva, L., 2020).*

**6. Tərtər**. Tərtər rayonu Qarabağ düzəlik ərazisində, onun meşəlik ərazilərində və Tərtər çayı ilə əhatə olunmuş çayların ərazilərində yerləşir. Qafqaz Albaniyasına məxsus qədim yaşayış məskənlərinin mövcudluğu bu bölgənin tarixi əhəmiyyətindən xəbər verir. Orta əsrlərdə ticarət yolları üzərində yerləşirdi. Qutlu Musa türbəsi və çay boyu kurqanlar rayonun zəngin arxeoloji irsini əks etdirir. Ənənəvi sahələr dulusçuluq və çini sənətidir. **(***Əliyev, S.,2021).*

**7. Xankəndi.** Xankəndi dağlıq ərazidə, təxminən 600-700 metr yüksəklikdə yerləşir. Mülayim iqlimə malikdir. XIX əsrdə Şuşa yaxınlığında kənd kimi salınmış, sonralar şəhər statusu almışdır. Sovet dövründə Dağlıq Qarabağın inzibati mərkəzi olub. Xankəndində sovet dövründə teatrlar, muzeylər, mədəniyyət ocaqları var idi. O,

Dağlıq Qarabağın mədəni həyatının formalaşmasında mühüm rol oynayıb. (*Sadıqov, T., 2018).*

**8. Xocalı.** Qarabağ dağ bölgəsinin ətəklərində yerləşən Xocalı təbii sərvətlərlə zəngindir. Bu sahədə e.ə. Eramızdan əvvəl II minilliyə aid olan Xocalı-Gədəbəy mədəniyyətinə aid kurqanlar aşkar edilmişdir. 1992-ci ildə burada Xocalı soyqırımı baş verib. Xocalı kurqanları və digər qədim yaşayış məskənləri bu rayonun qədim tarixindən xəbər verir. Qafqaz Albaniyasına aid arxeoloji dəyərləri ilə seçilir. **(***Məmmədov, K., 2017).*

**9.Xocavənd**

Qarabağın cənub ətəklərində yerləşir. Ərazi dağlıq və meşələrlə zəngindir. Ərazidə xristian alban kilsələri və orta əsrlərə aid yaşayış məskənləri aşkar edilmişdir. Tarixən burada əhali əkinçilik və heyvandarlıqla məşğul olub. Tuğ kəndində yerləşən alban məbədləri və Qızıl bazar ərazisindəki abidələr bölgənin multikultural irsini əks etdirir. **(**Əliyeva, Z., 2021), (İmrani, Z., Zeynalova, K., 2025, Qarabağın turizm-rekreasıya potensialı), (Babayev, N., 2025, Qarabağ iqtisadi rayonu qədim yurd yerləri və toponimlərin izahlı lüğəti)

**Cədvəl 1.1 Qarabağ iqtisadi rayonunun coğrafiyası, tarixi və mədəni irsi.**

| № | Rayon | Coğrafi vəziyyət | Tarixi | Mədəni irs |
|---|---|---|---|---|
| 1 | **Şuşa** | Qarabağ dağlıq ərazisinin cənub-qərbində, 1400-1600 m hündürlükdə yerləşir, dağ meşə relyefinə aiddir. | 1752-ci ildə Pənahəli xan tərəfindən salınıb, Qarabağ xanlığının siyasi və hərbi mərkəzidir. | Şuşa qalası, Gövhər Ağa məscidləri, Üzeyir Hacıbəyovun və Natavanın evləri burada yerləşir. |
| 2 | **Ağdam** | Qarabağ düzənliyində, Kür-Araz ovalığında, quru subtropik iqlim şəraitində yerləşir. | XVIII-ci əsrdə ticarət və kəsərrüfatı mərkəzi kimi tanınırdı. 1993-cü ildə işğal olunub. 2020-ci ildə işğaldan azad olunub. | Cümə Məscidi, İmarət kompleksi, müğam ənənələri ilə məşhurdur. |
| 3 | **Bərdə** | Kür çayın sağ sahilində, mühsuldar torpaqda, düzənlik ərazisində yerləşir. | Qafqaz Albaniyasının paytaxtı, Xülafət dövründə mədəniyyət və ticarət mərkəzi hesab olunurdu. | Bərdə türbəsi, qədim qalalar, orta əsr hamamları ilə tanınır. |
| 4 | **Füzuli** | Araz çayına yaxın, düzənlik və dağətəyi zonada yerləşir. | İşıqlı, Horadiz və Qaraxanbəyli kimi qədim yaşayış yerləri yerləşir. 1993-2020-ci illər işğal dövrləri hesab olunur. | Hacı Ələkbər məscidi, Qaraxanbəyli nekropolu, xalq sənətkarlığı ilə tanınır. |
| 5 | **Ağcabədi** | Kür-Araz ovalığında, düzənlik ərazisində, əkinçilik üçün əlverişli şəraitində yerləşir. | Qabağ xanlığının təsirində idi. XX-ci əsrdə rayon statusu almışdı. | Üzeyir Hacıbeyovun doğulduğu yerdir. Müğam və aşıq sənəti ilə məşhurdur. |
| 6 | **Tərtər** | Qarabağ düzənliyində, Tərtər çayın sahilində, meşəlik ərazisində yerləşir. | Qafqaz Albaniyasına məxsus qədim yaşayır yerləri mövcuddur. Ticarət yolları üzərində yerləşir. | Qutlu Musa türbəsi, kurqanlar və dulusçuluq ənənəsi ilə tanınır. |

| | | | | |
|---|---|---|---|---|
| 7 | **Xankəndi** | Qarabağın daölıq ərazisində, 600-700 m yüksəkliində yerləşir. | XIX-cu əsrdə kənd kimi tanınırdı, sonra isə şəhərə çevrilib. Sovet dövründə inzibati mərkəz idi. | Teatr, muzeylər və mədəniyyət evləri ilə tanınır. |
| 8 | **Xocalı** | Qarabağın dağlıq və dağətəyi zonasında yerləşir. | E.ə. II minilliyə aid kurqanlar mövcuddur. 1992-ci il faciəsi ilə tanınır. | Xocalı kurqanları, qədim yaşayış yerləri ilə məşhurdur. |
| 9 | **Xocavənd** | Qarabağın cənub dağətəyi zonası, meşəlik və dağlıq zonasında yerləşir. | Qədim Alban məbədləri ə yaşayış yerləri mövcuddur. Orta əsrdə kənd təsərrüfatı ilə məşhur idi. | Tuğ kəndində məbədlər, Qırmızı Bazar abidələri ilə tanınır. |

Mənbə: (Babayev, N. (2025). *Qarabağ iqtisadi rayonu qədim yurd yerləri və toponimlərin izahlı lüğəti.* AMEA akademik Həsən Əliyev adına Coğrafiya institutu), (İmrani Z. (2021) *Qarabağın speloturizmin inkişaf etdirilməsi imkanları),* (İmrani, Z., Zeynalova, K. (2025) *Qarabağın turizm-rekreasıya potensialı.* AMEA akademik Həsən Əliyev adına Coğrafiya institutu) materialları əasasında müəllif tərəfindən hazırlanıb.

Qarabağın tarixi Azərbaycanın qədim dövrlərinə gedib çıxır. Ərazidə aşkar edilmiş arxeoloji tapıntılar, qədim yaşayış məskənləri və abidələr bu rayonun zəngin keçmişindən xəbər verir.

Şuşa şəhəri Azərbaycan musiqisinin və poeziyasının beşiyi hesab olunur. Burada Üzeyir Hacıbəylinin, Bülbülün və Xurşidbanu Natəvanın ev-muzeyləri yerləşir.

Bölgədə aparılan arxeoloji qazıntılar, xüsusən Azıx mağarasında tapılan qədim insan ayaq izləri burada çox qədim insan məskənlərinin olduğunu sübut edir.

Qarabağ tarix boyu müxtəlif mədəniyyətlərin və sivilizasiyaların qovuşduğu məkan olub. Bu torpaqlarda Əhəmənilər, Sasanilər, Albanlar və digər qədim dövlətlər öz izlərini qoyublar. Orta əsrlərdə Qarabağ Azərbaycanın siyasi və mədəni həyatında mühüm rol oynamış, burada çoxlu şəhərlər, qalalar salınmışdır. (Yeni Qarabağnamə: Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında post-konflikt quruculuğu, 2022)

Xüsusilə XVIII əsrdə Qarabağ xanlığının yaranmasından sonra Şuşa şəhəri rayonun əsas siyasi, iqtisadi və mədəni mərkəzinə çevrilmişdir. Bir vaxtlar Şuşa "Kiçik Paris" adlanır, Azərbaycan musiqisinin və incəsənətinin beşiyi sayılırdı. Burada Üzeyir Hacıbəyli, Bülbül, Xurşidbanu Natəvan kimi şəxsiyyətlər yetişib. (Yeni Qarabağnamə: Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında post-konflikt quruculuğu, 2022)

İqtisadi İslahatların Təhlili və Kommuniksiya Mərkəzi "Yeni Qarabağnamə: Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında post-konflikt quruculuğu" kitabı hazırlanmışdır. Kitabın 198-ci səhifəsində Qarabağ İqtisadi rayonun inzibati rayonlar üzrə mədəni turizm və ekoturizm imkanları xəritə-sxemi göstərilir. O kitaba istinadən Qarabağ iqtisadi rayonunda mədəni və ekoturizm imkanları müəyyən edildi. Bildiyimiz kimi Qarabağ iqtisadi rayonuna Prezidentimizin yeni iqtisadi bölgüsü əsasında 9 inzibati rayon daxildir: Ağdam, Ağcabədi, Füzuli, Şuşa, Xocalı, Xocavənd, Tərtər, Bərdə, Xankəndi. Bu şəkilə əsasən biz deyə bilərik, ki Qarabağ

iqtisadi rayonunda Ağdam Cümə məscidi, Şahbulaq Qalası, Pənəhəli Xan sarayı, Çörək muzeyi, Qutlu Musa türbəsi, Azıx mağarası, Amaras Monastrı, Dizaq Məlik sarayı, Krişvəng monastrı, Ağ xaç kilsəsi, Qırmızı kilsə, Yeddi Qapı monastrı, Şeyx Babı türbəsi, Şah Abbas karvansarayı, Mirəli türbəsi, Alı körpüsü, Kərəm körpüsü Bərdə İmamzadə Türbəsi, Müqəddəs Yelisey Monastrı və Tərtər çayı üzərində qədim körpü kimi mədəni turizm abidələr və Suqovuşan, Ağgöl Milli Parkı və Köndələnçay su anbarı kimi ekoturizm imkanları mövcuddur. Həmçinin bu xəritə-sxemə əsasən biz deyə bilərik, ki Tərtər rayonunda Müqəddəs Yelisey Monastrı kimi mədəni turizm abidəsi və Suqovuşan kimi ekoturizm abidəsi mövcuddur. Bərdədə Mirəli Türbəsi və Tərtər çayı üzərində qədim körpü kimi mədəni abidələr mövcuddur. Ağcabədidə Ağgöl Milli Parkı ekoturizm abidəsi mövcuddur. Füzulidə Şeyx Babı türbəsi, Şah Abbas karvansarayı, Mirəli türbəsi, Alı körpüsü və Kərəm körpüsü kimi mədəni turizm abidələri və Köndələnçay su anbarı kimi ekoturizm abidəsi var. Xocavənddə bir mədəni turizm abidələr var: Azıx mağarası, Amaras Monastrı, Dizaq Məlik sarayı, Krişvəng monastrı, Ağ xaç kilsəsi, Qırmızı kilsə, Yeddi Qapı monastrı. Ağdamda Ağdam Cümə məscidi, Şahbulaq Qalası, Pənəhəli Xan sarayı, Çörək muzeyi, Qutlu Musa türbəsi kimi mədəni turizm abidələri mövcuddur. Ən çox mədəni abidə Xocavənddə mövcuddur. Xocalıda heç bir mədəni abidə qalmayıb. Hamısı erməni zorakılığı nəticəsində dağıntılara məruz qalıb.

**Şəkil 1.1 Qarabağ iqtisadi rayonunda turizm potenialı**




İstinad: "Yeni Qarabağnamə: Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında post-konflikt quruculuğu".2022, səh. 198

İqtisadi İslahatların Təhlili və Kommuniksiya Mərkəzinin hazırladığı "Yeni Qarabağnamə: Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında post-konflikt quruculuğu" kitabına əsasən biz deyə bilərik ki, Şuşa şəhəri Qarabağ iqtisadi rayonun və ümumilikdə Azərbaycanın ən əhəmiyyətli mədəniyyət şəhərləri hesab

olunur. Burada da həmçinin 13 mədəni turizm abidələri və 5 ekoturizm abidəsi mövcuddur. Mədəni abidələrdən Yuxarı Gövhər Ağa məscidi, Açağı Gövhər Ağa məscidi, Natəvan sarayı, Qarabağ xan sarayı, Molla Pənah Vaqif türbəsi, Şuşa mağara düşərgəsi, Şuşa qalası, Üzeyir Hacıbəyovun ev-muzeyi, Bülbülün ev-muzeyi, Qara Böyük Xanın bürcü, Ağa Qəhrəman Mirsiyab oğlunun karvansarayı, İkimərtəbəli karvansaray və Qazançı kilsəsi kimi abidələrini vurğulaya bilərik. Ekoturizm abidələrindən isə İsa bulağı, Cıdır düzü, Turşsu və Şirlan mineral sularını və Çətir şəlaləsi kimi ekoturizm abidələr mövcuddur.

**Şəkil 1.2 Şuşa rayonunda turizm potensialı**




İstinad: “Yeni Qarabağnamə: Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında post-konflikt quruculuğu”.2022, səh. 198

Qarabağda yerləşən Amaras monastırı, Gəncəsər monastırı, Qızıl kilsə, Şuşa qalası, Xudafərin körpüləri, Şuşa Çıdır düzü, Saatlı məscidi və Yuxarı Gövhər Ağa məscidi kimi mədəni irs obyektləri bölgənin zəngin tarixini və mədəni müxtəlifliyini nümayiş etdirir. (Yeni Qarabağnamə: Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında post-konflikt quruculuğu, 2022)

Qarabağın mədəni turizm üçün unikal potensialı var. Qarabağda turizmin inkişafında tarixi abidələrin bərpası və mühafizəsi, eləcə də onların turizm fəaliyyətinə cəlb edilməsi əsas rol oynayır. (Yeni Qarabağnamə: Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında post-konflikt quruculuğu, 2022)

1.2. Qarabağda təbii resursların turizmdə rolu

Qarabağın təbii sərvətləri - dağları, meşələri, çayları, mineral bulaqları ekoturizm və sağlamlıq turizmi üçün əlverişli şərait yaratmışdır. İstisu, Tərtər, Bazarçay və Mehri çayları kimi təbii sərvətlər gələcəkdə kurort turizmi üçün böyük imkanlar açır. (Yeni Qarabağnamə: Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında post-konflikt quruculuğu, 2022)

**Cədvəl 1.2 Qarabağın fiziki və iqtisadi xəritəsinin uzlaşdırılması**

| Ərazi | Fiziki coğrafiyası | İqtisadi istiqamət |
|---|---|---|
| **Şuşa** | Dağlıq ərazisində, 1400-1800 m yüksəklikdə yerləşir. | Turizm, mədəni irs, sağlamlıq turizmi əsas istiqamətlərdir. |
| **Füzuli** | Düzənlik və dağətəyi ərazisi. | Kənd təsərrüfatı, sənaye, bərpa və tikinti işləri aiddir. |
| **Xocalı** | Meşəlik və dağlıq ərazisindədir. | Meşə məhsulları, ekoturizm imkanları aiddir. |
| **Ağdam** | Qarabağ düzənliyi, mülayım iqlim. | Taxılçılıq, üzümçülük, sənaye bərpası. |
| **Bərdə** | Kür-Araz ovalığında, suvarılan torpaqlarda yerləşir. | Kənd təsərrüfatı, emal sənayesi. |
| **Tərtər** | Qarabağ çay hövzəsi, dağətəyi zonaya aiddir. | Suvarma, bağçılıq, pambıqçılıq ilə məşhurdur. |
| **Xocavənd** | Dağətəyi və dağlıq zonalar aiddir. | Ekoloji turizm, kənd təsərrüfatı. |
| **Ağcabədi** | Düzənlik ərazisi, suvarma üçün əlverişli ərazisindədir. | Maldarlıq, pambıqçılıq və kənd təsərrüfatı. |
| **Xankəndi** | Dağlıq relyef, meşəlik sahələr aiddir. | Turizm, sənaye və xidmət sektoru (potensial). |

Mənbə: Milli Atlasın, Azərbaycan Respublikası Milli Elmlər Akademiyası (AMEA), Həsən Əliyev adına Coğrafiya İnstitutu və Azərbaycan Coğrafiya Cəmiyyəti məlumatlar əsasında müəllif tərəfindən hazırlanıb

Qarabağ iqtisadi rayonu ərazisindən axan çaylar və su anbarları: Tərtər çayı, Həkəri çayı və Xudafərin su anbarı. Belə su ehtiyatları çay turizmi, balıqçılıq və istirahət üçün imkanlar yaradır. Ekoturizmin inkişafı ətraf mühitin mühafizəsinə də öz töhfəsini verəcək. (Yeni Qarabağnamə: Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında post-konflikt quruculuğu, 2022)

**Cədvəl 1.3 Qarabağ iqtisadi rayonlarının fiziki və iqtisadi xüsusiyyətləri cədvəli**

| **İqtisadi rayon** | **Ən hündür nöqtəsi** | **Ərazisi** | **Relyefi** | **Landşaftı** |
|---|---|---|---|---|
| Şuşa | 2200 m (Şuşa dağları) | 1320 km² | Dağlıq, yüksək dağlıq | Dağlıq və meşəlik ərazisi |
| Füzuli | 1340 m | 1400 km² | Düzənlik, alçaq dağətəyi ərazi | Quru düzənlik, çay vadisləri |

| | | | | |
|---|---|---|---|---|
| Xocalı | 2200 m | 1300 km² | Dağlıq, meşəlik ərazi | Meşəlik və dağlıq ərazisi |
| Ağdam | 1500 m ( Qarabağ silsiləsi) | 1100 km² | Qarabağ düzənliyi | Düzənlik, kənd təsərrüfatı |
| Bərdə | 1000 m (Qarabağ silsiləsi) | 1700 km² | Kür-Araz ovalığı, düzənlik ərazisi | Suvarma sahələri, düzənlik |
| Tərtər | 1450 m | 1200 km² | Qarabağ çay hövzəsi | Çay vadisi, düzənlik |
| Xocavənd | 2400 m (Murovdağ) | 1500 km² | Dağlıq, yamaqlı ərazi | Dağlıq və meşəlik ərazisi |
| Ağcabədi | 600 m | 2000 km² | Düzənlik, suvarma üçün əlverişli ərazi | Suvarma sahələri, kənd təsərrüfatı |

Mənbə: Azərbaycan Milli Elmlər Akademiyası, Coğrafiya İnstitutu, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, Milli Atlas, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi. İqtisadi islahatların təhlili və kommunikasiya mərkəzi, Yeni Qarabağnamə: Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında post-konflikt quruculuğu, 2022

**Qrafik. 1.1 Qarabağ iqtisadi rayonlarının ərazi (km²) və ən hündür nöqtələrinin (metrlə) müqayisəsini qrafiki**




Mənbə: Milli Atlas məlumatı əsasında müəllif tərəfindən hazırlanıb

Yuxarıdakı qrafikdə Qarabağın iqtisadi rayonlarının ərazisi (km²) və ən yüksək nöqtələrinin (metr) müqayisəsi göstərilir.

• Yaşıl xətlər ərazilərin ölçüsünü göstərir.

• Qrafikdəki mavi xətt hər bölgənin ən yüksək nöqtəsini göstərir.

Bu qrafiklərdən istifadə etməklə rayonların həm fiziki relyefini, həm də iqtisadi və coğrafi xüsusiyyətlərini aydın şəkildə müqayisə etmək olar.

## Qarabağ iqtisadi rayonunda resurs potensialının ümumi mənzərəsi

Zəngin təbii sərvətləri, müxtəlif relyef xüsusiyyətləri və əlverişli iqlimi ilə Qarabağ iqtisadi rayonu turizmin inkişafı üçün mühüm potensiala malikdir. Bu bölgəyə daxil olan rayon və şəhərlər (Xankəndi, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər) həm ekoloji, həm də mədəni irs baxımından qiymətli sərvətlərə malikdir.

**Cədvəl 1.4 Qarabağ reqionunun turizmin inkişafında resurs potensialı**

| Turizm imkanları | Ərazi | Perspektiv istiqamətləri |
|---|---|---|
| **Mədəni-tarixi turizm** | Şuşa, Ağdam | Mədəniyyət marşrutları, muzeylər |
| **Ekoturizm və dağ turizmi** | Laçın, Kəlbəcər | Trekking, kamping, təbiət marşrutları |
| **Sağlamlıq turizmi** | Kəlbəcər (İstisu) | Termal su kurortları |
| **Aqro-turizm** | Füzuli, Zəngilan | Kənd təsərrüfatı, termal sular |
| **Festival və tədbir turizmi** | Şuşa | Musiqi və poeziya festivalları |

Xankəndi dağlıq ərazidə yerləşir və sıx meşə örtüyü ilə seçilir. Mülayim dağ iqlimi ilə seçilən bu şəhərdə turizmin əsas istiqamətlərindən biri də mədəniyyət və tarixi abidələri ziyarət etməkdir. Ərazidə infrastrukturun bərpası və təhlükəsizlik tədbirləri həyata keçirildiyindən hazırda turizm fəaliyyəti məhduddur. Ağcabədi düzənlik relyefi ilə yanaşı, əlverişli torpaqları və kənd təsərrüfatı potensialı ilə də seçilir. Kənd və atçılıq turizmi üçün əlverişli şərait var. Xüsusilə, "Qarabağ Atçılıq Kompleksi" bu sahədə xüsusi əhəmiyyət kəsb edir. Ağdam rayonunun əsas təbii sərvətləri əkin sahələri və su ehtiyatlarıdır. Relyefi əsasən yarı düzənlik olan ərazi tarixi yerlərə, xüsusən də Çörək Muzeyi kimi obyektlərə ekskursiya etmək imkanı yaradır. Hazırda şəhərdə genişmiqyaslı yenidənqurma işləri aparılır. Hal-hazırda şəhərin genişmiqyaslı yenidənqurması aparılır. Bərdə düzənlik ərazidə yerləşir və suvarma sistemi ilə təchiz olunmuş kənd təsərrüfatı torpaqlarına malikdir. Tarixi abidələrlə zəngin olan və şəhər turizmi üçün əlverişli mühitə malik olan bu ərazi həm də rayonun iqtisadi və inzibati mərkəzlərindən biridir. Füzuli rayonu kənd təsərrüfata əlverişli torpaqlar, çınqıl yataqları kimi sərvətlərə malikdir. Relyef yarı düzənlikdir və burada yerləşən Füzuli Beynəlxalq Hava Limanı gələcək turist axını üçün regiona strateji imkanlar yaradır. Transsərhəd turizm potensialı da əhəmiyyətlidir. Xocalı meşələri və mineral bulaqları ilə diqqəti cəlb edir. Dağlıq ərazi və sərt iqlim tarixi yaddaşa söykənən turizm fəaliyyətinin inkişafı üçün ilkin şərait yaradır. Xocalı Soyqırımı Memorial Kompleksi ilə bağlı layihələr gələcəkdə bu istiqaməti daha da irəli apara bilər. Xocavənd rayonunda sıx meşə örtüyü və təmiz təbii su mənbələri ekoturizmin inkişafı üçün əlverişli şərait yaradır. Dağətəyi iqlim və müxtəlif relyef bu ərazidə planlaşdırılan turizm marşrutlarını daha da maraqlı edə bilər. Şuşa Azərbaycan mədəniyyətinin beşiyi hesab olunur. Bu dağ şəhəri mineral

suları, tarixi abidələri və Xarıbülbül festivalı ilə məşhurdur. Şuşa yüksək dağlıq iqlimi və gözəl təbiəti sayəsində mədəniyyət və festival turizmi üçün mühüm məkana çevrilib. Tərtər isə əsasən düzənlik relyefə malikdir və Tərtər çayı boyunca yerləşən bağçılıq və əkinçilik sahələri ilə tanınır. Burada yerli təşəbbüslər nəticəsində çay turizmi və kənd həyatını əks etdirən turizm formaları inkişaf edir. (İmrani, Z., Zeynalova, K., 2025, səh. 20, səh. 110, səh. 118, səh 129 ) (Dövlət Turizm Agentliyi: tourism.gov.az), (Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi: stat.gov.az), ("Azərbaycan Respublikasının Milli Atlası", 2020) (Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi)

### Cədvəl 1.5 Qarabağ iqtisadi rayonun resurs potensialı

| Rayon/şəhər | Təbii ehtiyatlar | İqlim şəraiti | Relyef xüsusiyyətləri | Turizm imkanları | Əlavə qeydlər |
|---|---|---|---|---|---|
| **Xankəndi** | Meşə sahələri, bulaq mənbələri | Yumşaqa dağ iqlimi | Dağlıq relyefi | Tarixi abidələr və mədəni tədbirlər üçün potensial | Hal-hazırda yenidənqurma prosesi gedir |
| **Ağcabədi** | Qarabağ düzənliyi, suvarılan əkin sahələri | Quru və isti düzənlik iqlimi | Düzənlik sahəsi | Atçılıq və kənd turizmi imkanları | Qarabağ Atçılıq Kompleksi yerləşır |
| **Ağdam** | Şoranlaşmış torpaq sahələri, əkinə yararlı torpaqlar | Mülayim iqlim şəraiti | Yarımdüzənlik relyefi | Çörək Muzeyi, tarixi yerlərə səyahətlər | Şəhər məhələli şəkildə bərpa olunur |
| **Bərdə** | Suvarma sistemi ilə əkin sahələri | İsti və mülayim iqlim | Düzənlik relyefi | Tarixi abidələr, türbələr və şəhər gəzintiləri | Bölgənin inzibati və iqtisadi mərkəzlərindən biridir |
| **Füzuli** | Qum və cınqıl yataqları, münbit torpaq | Yumşaq iqlim | Yarımdüzənlik əraziləri | Füzuli Beynəlxalq Hava liman, sərhəd turizmi üçün potensial | Bölgənin nəqliyyat qovşaqlarından biridir |
| **Xocalı** | Mineral sular, sıx meşəlik sahələr | Dağlıq iqlimi | Dağ relyefi | Tarixi yaddaş yönümlü turizm, memorial layihələr | Soyqırımı memorialı üçün hazırlıq görülür |
| **Xocavənd** | Meşə örtükləri, təbii bulaqlar | Dağətəyi iqlim | Dağlıq ərazisi | Ekoloji və dağ turizminə uyğun təbii mühit | Ekoturizm marşrutları yaradılır |
| **Şuşa** | Dağ bulaqları, müalicəvi mineral sular | Yüksək dağ iqlimi | Qayal və dağ relyefi | Mədəni turizm, festivallar və tarixi yerlər | Azərbaycan mədəniyyətinin simvol şəhəri |
| **Tərtər** | Tərtər çayı və ətraf kənd | Yumşaq iqlim | Düzənlik relyefi | Su və bağçılıq turizmi sahəsində potensial | Yerli əhalinin təşəbbüsləri ilə fəaliyyət genişlənir |

| | | | | | |
|---|---|---|---|---|---|
| | təsərrüfatı sahələri | | | | |

Mənbə: (Dövlət Turizm Agentliyi: tourism.gov.az), (Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi: stat.gov.az), ("Azərbaycan Respublikasının Milli Atlası", 2020) (Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi) mənbələri əsasında müəllif tərəfindən hazırlanıb

### Cədvəl 1.6 Potensialın ümumi qiymətləndirmə cədvəli

| Rayon | Əsas turizm imkanları | Relyef/landşaft | İnfrastrukturun vəziyyəti |
|---|---|---|---|
| **Şuşa** | Mədəni və musiqi turizmi | Dağlıq, qayalıq | Yenidən qurulmuş yollar, yüksək səviyyəli resort və SPA otelləri, konfrans zalları |
| **Kəlbəcər** | Sağlamlıq və SPA turizmi | Dağlıq, termal bulaqlar | İstisu kurortu bərpa olunur |
| **Laçın** | Ekoturizm və dağ yürüşləri | Meşəlik, yüksək dağlar | Turizm marşrutları müəyyənləşdirilir |
| **Ağdam** | Tarixi yerlərə ziyarət və aqroturizm | Düzənlik və dağətəyi relyef | İnfrastruktur yenilənir |
| **Zəngilan** | Ekoturizm, dağ turizmi və bağçılıq | Arazboyu çay düzənliyi | Yaşıl kənd layihələri |

### Cədvəl 1.7 Potensialın digər müqayisəli cədvəli

| Rayon | Təbii Resurslar | Relyef və landşaft | İqtisadi potensial | Turizm resursları |
|---|---|---|---|---|
| **Şuşa** | Mineral sular və bulaqlar, təbii dağ süxurları | Dağlıq, qayalıq relyefi | Mədəniyyət və turizm | Şüşa Qala kompleksi, Cıdır düzü, Xarıbülbül festivalları və tədbirlər |
| **Xankəndi** | Meşə resursları, torpaq ehtiyyatları | Dağətəyi və meşəlik əraziləri | Yüngül sənaye | Dağ turizmi, Şəhərdaxili muzey və parklar |
| **Xocalı** | Daş, qum kimi tikinti materialları | Yüksəklik dəyişkənliyi olan ərazi | Kənd təsərrüfatı | Ekoturizm potensialı, təbiət marşrutları |
| **Xocavənd** | Dağ çayları və meşələr | Dağətəyi və dağlıq sahəsi | Kənd təsərrüfatı və aqroturizm | Dağ yürüşləri, təbiət mənzərələri |
| **Ağdam** | Qarabağ düzənliyi, torpaq ehtiyyatları | Aran və dağətəyi ərazilər | Aqrar və sənaye | Çörək muzeyi, mədəni irs turizmi |

## 1.3. Qarabağ regionunda turizmin mövcud vəziyyəti

Qarabağ iqtisadi rayonu Azərbaycanın yüksək turizm potensialına malik, tarixi, mədəni və təbii sərvətləri ilə zəngin bölgələrindən biridir. Son illər həyata keçirilən bərpa və infrastruktur layihələri bu ərazilərin turizm baxımından inkişafına təkan verib. Aşağıda akademik mənbələrə əsaslanaraq Xankəndi, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonlarının şəhərlərində turizmin hazırkı vəziyyəti və inkişaf perspektivləri təqdim olunur. Xankəndi şəhəri Qarabağ

bölgəsinin mərkəzi şəhərlərindən biri kimi turizm potensialının inkişafı baxımından böyük əhəmiyyət kəsb edir. Şəhərin yaxınlığında yerləşən təbiət və tarixi abidələr, eləcə də mədəniyyət nümunələri turizm üçün cəlbedici yerlər hesab edilir. Eyni zamanda, şəhərin infrastrukturunun bərpası və yenidən qurulması turizm sektorunun inkişafına şərait yaradır. Ağcabədi rayonu zəngin mədəni irsi və tarixi abidələri ilə məşhurdur. Regionda yerləşən mədəniyyət mərkəzləri, muzeylər və digər tarixi yerlər turizm üçün mühüm resurslardır. Eyni zamanda rayonda keçirilən mədəni tədbirlər, festivallar turistlərin marağına səbəb olur. Ağdam rayonu Qarabağ bölgəsinin mühüm mədəni və tarixi mərkəzlərindən biridir. Rayon ərazisində yerləşən Şahbulaq qalası, Ağdam Cümə məscidi və digər tarixi abidələr turizm üçün cəlbedici yerlərdir. Rayonun infrastrukturunun bərpası və turizm obyektlərinin yenidən qurulması turizm sənayesinin inkişafına təkan verir. Bərdə rayonu zəngin tarixi-mədəni irsi ilə məşhurdur. Rayonda yerləşən tarixi abidələr, muzeylər və mədəniyyət mərkəzləri turizm üçün mühüm resurslardır. Eyni zamanda rayonda keçirilən mədəni tədbirlər, festivallar turistlərin marağına səbəb olur. Füzuli rayonu təbii və mədəni sərvətlərlə zəngindir. Rayon ərazisində yerləşən Azıx mağarası, tarixi abidələri və təbiət gözəllikləri turizm üçün cəlbedici yerlərdir. Rayonun infrastrukturunun bərpası və turizm obyektlərinin yenidən qurulması turizm sənayesinin inkişafına təkan verir. Xocalı rayonu zəngin tarixi və mədəni irsi ilə tanınır. Rayonda yerləşən tarixi abidələr, mədəniyyət mərkəzləri və digər turizm obyektləri turizm üçün əhəmiyyətli resurslardır. Eyni zamanda, rayonda keçirilən mədəni tədbirlər və festivallar turistlərin marağını cəlb edir. Xocavənd rayonu zəngin tarixi və mədəni irsi ilə tanınır. Rayonda yerləşən Amaras monastırı və digər tarixi abidələr turizm üçün cəlbedici məkanlardır. Rayonun infrastrukturunun bərpası və turizm obyektlərinin yenidən qurulması turizm sektorunun inkişafına təkan verir. Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı olaraq, zəngin tarixi və mədəni irsi ilə tanınır. Şəhərdə yerləşən Xan qızı Natəvanın evi, Üzeyir Hacıbəyovun ev-muzeyi, Cıdır düzü və digər tarixi abidələr turizm üçün cəlbedici məkanlardır. Şəhərin infrastrukturunun bərpası və turizm obyektlərinin yenidən qurulması turizm sektorunun inkişafına təkan verir. Tərtər rayonu zəngin tarixi və mədəni irsi ilə məşhurdur. Rayon ərazisində yerləşən tarixi abidələr, mədəniyyət mərkəzləri və digər turizm obyektləri turizm üçün mühüm resurslardır. Eyni zamanda rayonda keçirilən mədəni tədbirlər, festivallar turistlərin marağına səbəb olur. Qarabağ bölgəsində turizmin inkişafı məqsədilə həyata keçirilən bərpa və infrastruktur layihələri, tarix və mədəniyyət abidələrinin mühafizəsi və yenidən qurulması, turizm obyektlərinin yaradılması, mədəni-kütləvi tədbirlərin təşkili rayonun turizm potensialını artırır. Bu istiqamətdə aparılan işlər rayonun iqtisadi inkişafına və sosial rifahına müsbət təsir göstərir. (Yeni Qarabağnamə: Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında post-konflikt quruculuğu, 2022)

2020-ci ildə ərazilər azad edildikdən sonra Qarabağda bərpa və yenidənqurma işləri geniş vüsət almağa başlayıb. Turizm obyektlərinə layihələndirmə və

investisiyalar artır. Hazırda Şuşada bir neçə mehmanxana, mədəniyyət ocağı açılıb. Zəngəlan və Laçında da beynəlxalq hava limanları fəaliyyətə başlayıb. Lakin mina təhlükəsi, infrastrukturun tam bərpa olunmaması kimi problemlər hələ də mövcuddur. ( Yeni Qarabağnamə: Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında post-konflikt quruculuğu, 2022, səh 17)

**Cədvəl 1.8 Qarabağ iqtisadi rayonunda turizmin mövcud vəziyyəti ( 2024-cü il etibarilə)**

| Rayon/şəhər | Turizm növləri | Mövcud infrastruktur | Hazırki vəziyyət (2024) | Qeydlər/Potensial |
|---|---|---|---|---|
| **Şuşa** | Mədəni-tarixi, festival turizmi | Bərpa olunan yollar, otellər və konfrans zalları | Yüksək dinamika, əsas mədəni mərkəz sayılır | Xarıbülbül festivalı, Şuşa qalası |
| **Xankəndi** | Şəhər turizmi, mədəniyyət | Yenidənqurma başlanıb | Turizmə hələlik qapalı, təhlükəsizlik mərhələsində | Yenidən məskunlaşma gözlənilir |
| **Ağdam** | Tarixi, aqro, memorial turizmi | Çörək muzeyi bərpa edilir | Tədricən canlanma, turlar təşkil olunur | Ağdam şəhəri "Qafqazın Xirosiması" kimi təqdim olunur |
| **Füzuli** | Mədəni, sərhəd zonaları turizmi | Beynəlxalq hava limanı, yollar | Aşağı səviyyə, ancaq strateji əhəmiyyətli, əsasən nəqliyyat qovşağı kimi tanınır | Aeroport turizmi üçün qapı rolunda |
| **Xocavənd** | Ekoturizm, dağ turizmi | Meşə marşrutları müəyyən edilir | İnkişaf üçün planlaşdırılma mərhələsində | Təbii landşaftlar cəlbedicidir |
| **Xocalı** | Əsasən dağ və tarixi yaddaş turizmi | Minimal infrastruktur və infrastrukturun bərpası gedir | Hələlik məhdud turizm fəaliyyəti | Xocalı soyqırımı memorial kompleksi planlaşdırılır |
| **Tərtər** | Çay turizmi, kənd turizmi | Tərtər çayı ətrafında imkanlar | Lokal səviyyədə turizm təşəbbüsləri | Təbii çay sistemləri və bağçılıq |
| **Bərdə** | Tarixi dini, şəhər turizmi | Otellər, yollar mövcuddur | Aktiv turizm zonası sayılır | Ələxan türbəsi və tarixi abidələr mövcuddur |
| **Ağcabədi** | Aqro və kənd turizmi | Qarabağ atçılıq kompleksi mövcuddur | Turizm potensialı mövcuddur | Atçılıq və etnoqrafik turizm üçün baza |

Mənbə: Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi – Qarabağ üzrə Turizm Bərpa Planı, 2023, Yeni Qarabağnamə: Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında post-konflikt quruculuğu, 2022 , səh 185)

## Qrafik 1.2 Qarabağ iqtisadi rayonunda turizmin mövcud vəziyyıti (2024)




Mənbə: Dövlət Turizm Agentliyi: tourism.gov.az, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi: stat.gov.az, "Azərbaycan Respublikasının iqtisadi rayonlara bölgüsü haqqında" Prezident Fərmanı, 2021, "Azərbaycan Respublikasının Milli Atlası", 2020, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi

Yuxarıdakı qrafikdə Qarabağ iqtisadi rayonunun 9 inzibati ərazi vahidində (Şərqi Zəngəzur çıxılmaqla) 2024-cü ilə dair turizm infrastrukturunun səviyyəsi və turizm fəaliyyətinin aktivliyi müqayisəli şəkildə göstərilir.

## Cədvəl 1.9 Qarabağ iqtisadi rayonunda turizmin cari vəziyyəti üzrə SWOT təhlili

| **Güclü tərəflər (Strengths)** | **Zəif tərəflər (Weaknesses)** |
|---|---|
| Zəngin təbii ehtiyatlar: dağlar, meşələr, mineral bulaqlar, çaylar. | Dağılmış infrastruktur (yollar, mehmanxanalar, rabitə və kommunikasiya). |
| Tarixi və mədəni irs obyektlərin çoxluğu: Şuşa, Ağdam, Xocalı və s. | Turizm xidmətləri üzrə ixtisaslaşmış yerli kadrların çatışmazlığı. |
| Dövlət dəstəyi və post-münaqişə dövrü üçün xüsusi inkişaf proqramları. | Bəzi ərazilərdə hələ də mövcud olan mina təhlükəsi. |
| Beynəlxalq maraq və xarici investorların diqqəti. | İctimai nəqliyyat və informasiya təminatında boşluqlar. |
| Milli kimliyin və mədəniyyətin simvolu kimi tanınan ərazilər. | Turizmə dair vahid marketinq, brendinq və hazır turizm məhsulun olmaması. |
| **İmkanlar (Opportunities)** | **Təhlükələr (Threats)** |
| Regionun beynəlxalq səviyyədə tanıdılması və turizm sərgilərində təqdimatı, həmçinin konfransların təşkili, Şuşada bir çox otellərin və konfrans zalların mövcudluğu | Geosiyasi risklər və regional sabitliyə dair narahatlıqlar. |

| | |
|---|---|
| Ekoturizm, aqroturizm və etnoturizm kimi yeni turizm növlərinin inkişafı. | Rəqabət qabiliyyətli infrastruktur qurulmazsa, investor marağının azalması. |
| Yeni hava limanlarının istifadəyə verilməsi (Füzuli hava limanı). | Turistlər üçün təhlükəsizlik və informasiya boşluqları. |
| Xarıbülbül festivalı və digər mədəni tədbirlər vasitəsilə turizm axınının artırılması. | Rəqəmsal informasiya infrastrukturunun zəifliyi səbəbindən tanıdılmama problemi. |
| İctimai özəl tərəfdaşlıq modelləri və yerli icmaların iştirakı ilə turizm layihələri. | Əhalinin bəzən məcburi köç statusundan çıxmamış olması – sosial adaptasiya çətinliyi. |

Mənbə: Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi. (2023). *İşğaldan azad edilmiş ərazilərdə turizm potensialının inkişafı üzrə strateji yol xəritəsi*. Baku: DTA., Əhmədova, S. (2022). Qarabağ bölgəsinin turizm imkanları və inkişaf perspektivləri. *Turizm və Sosial Elmlər Jurnalı*, 8(1), 45-58 mənbələri üzrə müəllif tərəfindən hazırlanıb

## II FƏSİL: Qarabağda turizmin inkişaf imkanları və çağırışları

2.1. Qarabağ regionunun iqtisadi potensialı və turizmə təsiri

Qarabağ iqtisadi rayonu iqtisadi gücü və resursları ilə seçilən regiondur. Bu ərazi müxtəlif iqtisadi sahələrin inkişafı üçün potensiala malikdir və eyni zamanda turizmin inkişafı üçün mühüm imkanlar yaradır. Bölgənin turizm sektorunun inkişafına təsir edən əsas amillər sırasında sənaye, kənd təsərrüfatı, nəqliyyat və infrastruktur layihələrinin gedişi böyük əhəmiyyət kəsb edir.

**Qarabağ regionunun iqtisadi imkanları və turizmə təsiri**

Son vaxtlar Qarabağ iqtisadi rayonunun inkişafı xeyli sürətlənib. Məkan ərazisində kənd təsərrüfatı, sənaye və xidmət sahələrinin dirçəlməsi ilə yanaşı, infrastrukturun əsaslı şəkildə yeniləşdirilməsi regionun iqtisadi gücünü artırmış və turizm sahəsinin genişlənməsinə şərait yaratmışdır.

Qarabağda kənd təsərrüfatı, sənaye və xidmət sahələrinin inkişafı turizmlə paralel davam etdirilir.

Yeni salınan avtomobil yolları, beynəlxalq hava limanları, texnoparklar bu regionun iqtisadi gücünü artırır və turizmə kömək edir.

Bundan əlavə, Şərqi Zəngəzur iqtisadi rayonunda planlaşdırılan "yaşıl enerji zonası" ekoturizmi stimullaşdıracaq.

**İqtisadi imkanlar və infrastrukturun inkişafı**

İşğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı infrastruktur layihələri həyata keçirilir. Bu kontekstdə Füzuli və Zəngilan beynəlxalq hava limanları artıq işə düşüb, Laçın Beynəlxalq Hava Limanı isə inşa olunur. Eləcə də Bərdə–Ağdam və Horadiz–Ağbənd dəmir yolu xətlərinin qurulması regionun nəqliyyat və logistika şəbəkəsinin möhkəmləndirilməsinə hesablanıb (İqtisadiyyat Nazirliyi, 2024). Kənd təsərrüfatı sektoru da prioritet istiqamətlərdəndir. Füzuli rayonunda 25,5 min hektara yaxın otlaq və biçənək sahələrinin olması heyvandarlığın inkişafı üçün münasib imkanlar yaradır. Ağdam rayonu isə kənd təsərrüfatı və sənaye potensialının birliyi ilə seçilir (DSK.az, 2024). 2024-cü il ərzində Qarabağ iqtisadi rayonunda ümumilikdə 984 yeni iş yeri yaradılıb. Bu iş yerlərinin bölgüləri belədir: Ağcabədi – 113, Ağdam – 135, Bərdə – 115, Füzuli – 52, Xocalı – 6, Xocavənd – 52, Şuşa – 275 və Tərtər – 236 (İqtisadiyyat.az, 2024).

**Turizm imkanları**

